# *Toksoplazmoz*



Toksoplazmoz insan və heyvanlarda *Toxoplasma gondii* tərəfindən törədilən və əksər hallarda simptomsuz keçən parazitar xəstəlikdir.

Son sahib ev pişikləri və pişikkimilər ailəsinin bəzi vəhşi nümayəndələridir (vaşaq, puma, yaquar və s.).



İnsanlarda qazanılmış toksoplazmozun törədicilərinin mənbəyi oosistalar (oosista-pişiyin nazik bağırsağının selikli qişasında formalaşan törəmələrdir, nəcis ilə xaric olan oosistalar həyat qabiliyyətini uzun müddət saxlayır, yüksək və aşağı temperatur onlara təsir etmir) olan nəcisləri (ifrazatı) ətraf mühitə səpələyən pişiklərdir.

Kənd təsərrüfatı heyvanları və quşlarından onların ətini, nadir hallarda südünü və ya yumurtasını yalnız çiy istifadə etdikdə və ya kifayət qədər termiki emal etmədikdə toksoplazmoza yoluxmaq olar.

Aralıq sahiblər (itlər, kənd təsərrüfatı heyvanları) ilə təmas insanların yoluxmasına səbəb olmur. Xəstə insan törədiciləri xarici mühitə ifraz etmir və ətrafdakılar üçün heç bir təhlükə törətmir.

Toksoplazmoz hamilə qadınlar və immuniteti zəif olan insanlar üçün çox böyük təhlükə yaradır. Dölün bətndaxili infeksiyalaşması ilə hamiləliyin qeyri-ixtiyari pozulması, ölüdoğulma və ya körpənin mərkəzi sinir sistemi, göz və digər orqanların ağır zədələnməsi ilə doğulmasına səbəb olur.



Çox vaxt anadangəlmə toksoplazmoz zamanı uşaqda ciddi zehni gerilik-oliqofreniya müşahidə olunur.

İmmuniteti zəif olan insanlarda toksoplazmoz ağır gedişli olur.

Diaqnoz dəqiq klinik müayinə, seroloji və allergik reaksiyaların müsbət nəticələri əsasında qoyula bilər.

Profilaktika:

-Pişiklərlə təması məhdudlaşdırmaq (və ya pişiklərlə az təmasda olmaq);





-Şəxsi gigiyena qaydalarına riayət etmək - hər hansı bir işi gördükdən sonra əlləri yumaq (xüsusilə çiy ətlə təmasda olduqda vacibdir);



-Çiy qiyməni, kifayət qədər termiki emaldan keçməyən ət yeməklərini dadmağı (dequstasiya) qadağan etmək;



-Hamiləlik dövründə qadınların yoluxmasının qarşısını almaq, həmçinin hamilə qadınların toksoplazmoza görə dəqiq müayinəsi;





-Peşəsi ilə əlaqədar heyvanlarla təmasda olan, habelə heyvan mənşəli məhsulların emalı ilə məşğul olan şəxslər xüsusi geyimlərdən və əlcəkdən istifadə etməli, şəxsi gigiyena qaydalarına əməl etməlidirlər;

-Ev pişiklərini çiy ətlə qidalandırmaq məsləhət deyil;



-Ev pişiklərinin nəcisləri onların tərkibindəki oosistaların yetişməsinin qarşısını almaq üçün hər gün məhv edilməlidir;





-Pişikləri toksoplazmoza görə vaxtaşırı müayinə etmək tövsiyə olunur.

**"Respublika Gigiyena və Epidemiologiya Mərkəzi" PHŞ**

# Toksoplazmoz